

Prezident İlham Əliyev səhiyyə işçilərinə fəxri adların verilməsi barədə sərəncamlar imzaladı

2



Milli Məclis səhiyyə qanunvericiliyini müzakirə etdi

2




«Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresi

4


# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

№ 11-12 (675) 30 iyun 2019-cu il Qəzet 1991-ci ildən nəşr olunur www.tibbqazeti.az


## Azərbaycanda tibb işçilərinin peşə bayramı qeyd edildi




3

## Səhiyyə naziri Oqtay Şirəliyev Qubada vətəndaşları qəbul edib



2

## Akademik Cahangir Aslanov adına Elmi Tədqiqat Kardiologiya İnstitutunun 40 illiyi qeyd olundu



6


Tel: (994 12) 530 15 15
530 41 67
530 41 68
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az


## Bakıda «Delta hepatiti» beynəlxalq konfransı

APASL STC
2019 | BAKU

7

### Афоризм

*Счастье - это хорошее здоровье и плохая память*

*Ингрид Бергман*

## Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**«Əməkdar həkim»**

Camalova Təranə Paşa qızı
Dadaşov Ədalət İmamcan oğlu
Eybətova Cəmilə Bəylər qızı
Əhmədov Hüseyn Məcid oğlu
Hacıyev Məcid Mahmud oğlu
Həsənova Nəzakət Cabbar qızı
İbrahimov Elman İsmayıl oğlu
İbrahimova Gülər Arif qızı
İsrafilova Mahirə Şahalı qızı
Məmmədov Azər Bağır oğlu
Nağıyeva Pəri Haxverdi qızı
Salmanov Mehrab Məhəmməd oğlu

**«Əməkdar müəllim»**

Hüseynova Nərgiz Mirbağır qızı
Məmmədova Arifə Cümayıl qızı

**«Əməkdar tibb işçisi»**

Əliyeva Təranə Sabir qızı.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 iyun 2019-cu il.*

## Azərbaycan Respublikasının səhiyyə işçilərinin «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər «Tərəqqi» medalı ilə təltif edilsinlər:

Cəfərov Rauf Mehralı oğlu
Əbdülov Sucəddin Cəlil oğlu
Əliyev Əlövsət Həbib oğlu
Həsənov Ədalət Bəybala oğlu
Hüseynov Xəlil Rafiq oğlu
Musayev Vilayət Novruz oğlu
Süleymanova Nəzakət Akif qızı
Şahsuvarov Oruc Müseyib oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 11 iyun 2019-cu il.*

## İ.S.Babaxanova «Əməkdar həkim» fəxri adının verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində səhiyyə sahəsinin inkişafındakı xidmətlərinə görə İsbi Salman oğlu Babaxanova «Əməkdar həkim» fəxri adı verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 iyun 2019-cu il.*

## Dövlət qulluqçuları təltif olundular

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Dövlət qulluqçularının təltif edilməsi haqqında» Sərəncam imzalayıb.**

Sənədə əsasən, dövlət orqanlarında çalışan bir qrup şəxs dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni, «Tərəqqi» və «Dövlət qulluğunda fərqlənməyə görə» medalları ilə təltif olunub.

Mükafatlandırılanlar arasında Səhiyyə Nazirliyində çalışan dövlət qulluqçuları da var. Belə ki, Kadrlar, elm və təhsil şöbəsinin müdiri Səidə Rüstəmova, Dəftərxana və kargüzarlıq sektorunun müdiri Əfşan Həmidova, Hüquq və daxili nəzarət sektorunun müdiri Elxan Əzizov «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif ediliblər.

## Milli Məclis səhiyyə qanunvericiliyini müzakirə etdi

**Milli Məclisin növbədənkənar sessiyasının ikinci plenar iclası keçirilib. Toplantıda digər məsələlərlə yanaşı, səhiyyə ilə bağlı qanunvericilik məsələləri də müzakirə olunub.**



«Əhalinin sağlamlığının qorunması haqqında» Qanuna dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edən Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bildirib ki, dəyişiklik tibb müəssisələrinin akkreditasiyası ilə bağlıdır və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin tələblərə uyğunluğunun müəyyən edilməsi məqsədi daşıyır.

Qanun layihəsi səsə qoyularaq, ikinci oxunuşda təsdiqlənib.

## «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

«Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2575) 2-ci hissəsinə «Talassemiya Mərkəzi» sözlərindən sonra «B.Ə.Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transplantologiya İnstitutu, K.Y.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu, Akademik C.M.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutu, V.Y.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu, Elmi Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Elmi Tədqiqat Tibbi Bərpa İnstitutu, Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu, M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi» sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 iyun 2019-cu il.*

## Səhiyyə naziri Qubada vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə səyyar qəbul günləri təşkil olunur. Bu görüşlərdə vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılır, onların həlli istiqamətində tədbirlər görülür.**



Tərtib edilmiş cədvələ uyğun olaraq, Səhiyyə naziri Oqtay Şirəliyevin bu qəbildən növbəti qəbul günü Quba Rayon Mərkəzi Xəstəxanasında keçirilib. Nazir Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran sakinlərini qəbul edib, onların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Qəbulda qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Onların bəziləri yerindəcə həll edilib, digərlərinin həlli ilə bağlı göstərişlər verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti üzrə çatdırılmaq üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

## ATU ilə Dokuz Eylül Universiteti arasında memorandum imzalanıb

**Türkiyənin Dokuz Eylül Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin (ATU) qonağı olub. Görüş ATU ilə Dokuz Eylül Universiteti arasında əməkdaşlığın əsasını qoymaq, birgə fəaliyyətə dair anlaşma memorandumu imzalamaq məqsədi daşıyıb.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirib ki, istənilən ali məktəb üçün beynəlxalq əlaqələrin inkişafı mühüm yer tutur: «Biz də dünya miqyaslı universitetlərlə əlaqə qurulmasını, birgə elmi iş və tədqiqatlar aparılmasını, məqalələr yazılmasını arzulayırıq. ATU tələbələri və rezidentlərinin Türkiyədəki, Avropadakı həmkarları ilə qarşılıqlı araşdırma aparması üçün bütün imkanlarımız var. Bu imkanları genişləndirmək üçün Türkiyə universitetləri ilə münasibətləri sıxlaşdırmaq niyyətindəyik».

Professor G.Gəraybəyli Tibb Universitetinin Türkiyənin bir çox ali məktəbləri ilə əməkdaşlıq etdiyini, tələbələrin rotasiya qaydasında qardaş ölkədə təhsil aldığını, bilik və bacarıqlarını artırdığını qeyd edib. Rektor universitetin klinikalarında keçirilən konqres və konfranslarda Türkiyədən gələn professorların, mütəxəssislərin də iştirak etdiyini diqqətə çatdırıb.

G.Gəraybəyli həmçinin qonaqlara Azərbaycanda səhiyyənin və təhsilin inkişafı istiqamətində atılan son addımlar, ölkə başçısının imzaladığı fərman və sərəncamlar haqqında məlumat verib, onları ATU-da aparılan islahatlarla tanış edib.

Dokuz Eylül Universitetinin rektoru, professor Nükhet Hotar da qarşılıqlı əlaqələrin dərinləşməsinin əhəmiyyətini vurğulayıb. O, rəhbərlik etdiyi universitetin böyüklüyünə görə Türkiyədə ilk beşliyə daxil olduğunu qeyd edib: «Fakültələrimiz arasında Tibb fakültəsi çox inkişaf edib. Universitet nəzdində 1100 çarpayılıq klinikamız fəaliyyət göstərir. Bakıda 5 universitet rəhbərliyi ilə görüşlər keçirmişik. Niyyətimiz mövcud əlaqələri daha da genişləndirməkdir. İnanırıq ki, bu saziş sayəsində istəyimizə nail olacağıq».

Görüşün sonunda Azərbaycan Tibb Universiteti və Türkiyənin Dokuz Eylül Universiteti arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb. Tərəflər qarşılıqlı elmi işlər, araşdırma və tədqiqatlar, birgə tədbirlər keçirilməsinə dair razılığa gəliblər.

# Tibb işçilərinin peşə bayramı qeyd edildi



**Artıq 19 ildir ki, 17 iyun tarixi Azərbaycanda Tibb İşçiləri Günü kimi qeyd olunur. Ənənəyə sadiq qalaraq, Səhiyyə naziri Oqtay Şirəliyev başda olmaqla Nazirliyin rəhbər işçiləri, tibb ictimaiyyətinin nümayəndələri bayram münasibətilə bu dəfə də Fəxri Xiyabana gəldilər, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etdilər, məzarı önünə gül dəstələri qoydular.**

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri düzüldü.

Sonra tibb işçilərinin peşə bayramı münasibətilə Səhiyyə Nazirliyində kollegiya iclası keçirildi.

Tədbiri giriş sözü ilə açan **Səhiyyə naziri Oqtay Şirəliyev** bütün tibb işçilərini peşə bayramı münasibətilə ürəkdən təbrik etdi, onlara cansağlığı, səadət, əmin-amanlıq arzuladı. 17 iyun tarixinin 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Səhiyyə Nazirliyinin yaradıldığı gün olduğunu, ümummilli lider Heydər Əliyevin 2001-ci ildə imzaladığı Sərəncama əsasən, həmin günün hər il tibb işçilərinin peşə bayramı kimi qeyd edildiyini vurğuladı. Bu bayramı ulu öndərin Azərbaycan səhiyyəsinə, tibb işçilərinin fəaliyyətinə verdiyi yüksək dəyərin göstəricisi kimi qiymətləndirdi.

Səhiyyə naziri bu gün ölkəmizdə dahi şəxsiyyət Heydər Əliyevin səhiyyə siyasətinin uğurla davam etdirildiyini bildirdi: «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş siyasəti, gərgin əməyi sayəsində Vətənimiz hər sahədə inkişaf edir. O cümlədən səhiyyə sahəsində də böyük uğurlar əldə olunub. Səhiyyəmizin inkişafina daim diqqət ayrılır. Yeni tibb müəssisələri tikilir, əsaslı təmir olunur, ən müasir avadanlıqlarla təchiz edilir və əhalinin istifadəsinə verilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər dəfə yeni səhiyyə ocaqlarının açılışında iştirak edəndə, tibb işçiləri ilə görüşəndə ölkə səhiyyəsinin inkişafını xüsusi qeyd edir, əhalinin sağlamlığının qorunması istiqamətində görülən işləri yüksək qiymətləndirir».

Oqtay Şirəliyev səhiyyənin inkişafından danışarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətini xüsusi qeyd etməyin vacibliyini diqqətə çatdırdı: «Biz gündəlik işimizdə səhiyyənin ən çətin problemlərinin həllində daim onun diqqətini görürük. Mehriban xanım vətəndaşlarımızın səhhətinə, xüsusən gənc nəslin sağlamlığının mühafizəsinə böyük qayğı göstərir. Onun təşəbbüsü ilə qəbul olunan qanunlar, dövlət proqramları insanların sağlamlığının qorunmasında olduqca böyük rol oynayır.

Azərbaycan dövləti əhalinin səhhəti naminə, ən ağır xəstələrin, həyatı dərman təminatından asılı olan insanların müalicəsinə yardım etmək üçün xüsusi dövlət proqramları qəbul edir. Məhz bunun nəticəsində həmin xəstəliklərdən əziyyət çəkən insanların həyat keyfiyyəti yaxşılaşır, ömrü uzanır».

Nazir vurğuladı ki, dünya ölkələri arasında əlaqələrin gündən-günə genişləndiyi, internet, sosial şəbəkələr vasitəsilə istənilən yerdən məlumat almaq imkanının olduğu bu şəraitdə hər kəs Azərbaycan səhiyyəsini, tibb müəssisələrinin maddi-texniki təchizatını dünyanın ən qabaqcıl səhiyyə sistemləri ilə müqayisə edə bilər və onların heç birindən geri qalmadığını, bir sıra hallarda isə hətta onları üstələdiyini görə bilər.

O.Şirəliyev Azərbaycan səhiyyəsinin inkişafının beynəlxalq qurumlar tərəfindən yüksək dəyərləndirildiyini də diqqətə çatdırdı: «Azərbaycan dövlətinin əhalinin sağlamlığının qorunması sahəsində fəaliyyəti başqa dövlətlərə nümunə göstərilir. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatının son üç Baş direktoru Azərbaycana gəlib, burada görülən işlərlə tanış olub və razılığını bildirib. Sonuncu dəfə ÜST-nin hazırkı Baş direktoru doktor Tedros Gebreyesus ölkəmizə səfər edərkən Azərbaycan səhiyyəsinin inkişafını xüsusi qeyd etdi, Prezident İlham Əliyevin bu sahədə fəaliyyətini yüksək qiymətləndirdi».

Bu gün ölkəmizdə müxtəlif beynəlxalq ictimai-siyasi, mədəni, idman tədbirlərinin keçirilməsini Azərbaycanın dinamik inkişafının təzahürü adlandıran Səhiyyə naziri söylədi: «Əvvəllər Azərbaycanda təşkil olunan qitə və dünya miqyaslı ilk tədbirlər zamanı iştirakçılara tibbi xidmət göstərilməsi üçün təşkilatçılar və mütəxəssislər xaricdən dəvət olunurdu. Lakin zaman keçdikcə, səhiyyəmiz inkişaf etdi və tədricən bu tədbirlərdə tibbi xidmət göstərməyi bizə etibar etdilər. Bu gün ölkəmizdə belə tədbirlər keçiriləndə iştirakçılara tibbi xidmət birmənalı olaraq məhz Azərbaycan səhiyyəsinə həvalə edilir. Hətta indi bizim bu sahədə təcrübəmizin olmasını nəzərə alaraq, mütəxəssislərimizi xarici tədbirlərə də dəvət edirlər».

Ölkə səhiyyəsinin inkişafının özünü həm də davamlı islahatlarda göstərdiyini deyən nazir dövlət başçısı cənab İlham Əliyevin son illərdə icbari tibbi sığortaya keçidlə bağlı bir neçə sərəncam verdiyini də diqqətə çatdırdı: «Bu sənədlərə uyğun olaraq pilot rayonlarda icbari tibbi sığorta sistemi tətbiq edilib. Dövlət başçısının ötən ilin dekabr ayında verdiyi sərəncama əsasən, bu ilin sonunadək paytaxtda və bölgələrdə bir sıra dövlət tibb müəssisələri də bu sistemə keçəcək. Biz hər cür yardım etməli və çalışmalıyıq ki, bu keçid uğurla baş tutsun və ölkəmizdə əhalinin sağlamlığının qorunmasına əhəmiyyətli töhfələr versin».

Oqtay Şirəliyev keçən il Tibb İşçiləri Günündə həm də Azərbaycan Səhiyyə Nazirliyinin 100 illik yubileyinin, bu il isə Azərbaycanda tibb təhsilinin 100 illiyinin qeyd edildiyini söylədi. O, 1919-cu ildə Bakı Dövlət Universiteti və onun tərkibində Tibb fakültəsinin yaradıldığını, o vaxtdan etibarən tibb mütəxəssislərinin öz ölkəmizdə təhsil almağa başladığını dedi: «Bu gün Azərbaycan səhiyyəsində fəaliyyət göstərən mütəxəssislərin mütləq əksəriyyəti məhz Azərbaycan Tibb Universitetinin məzunlarıdır. Mən xüsusi vurğulamaq istəyirəm ki, səhiyyəmizin inkişafı ilk növbədə məhz bu mütəxəssislərdən - həkimlərdən və digər tibb işçilərindən asılıdır. Çünki xəstəni sağaldan nə səliqəli xəstəxana binası, nə rahat palatalar deyil. Müasir diaqnostik cihazlar, innovasion texnologiyalar yalnız savadlı həkimin əlində şəfa alətinə çevrilir. Heç bir avadanlıq tibb işçisinin biliyini və bacarığını, xəstəyə həssas və diqqətli münasibətini əvəz edə bilməz».

Çıxışının sonunda Səhiyyə naziri ölkəmizdə səhiyyə və tibb elmi sahəsində çalışan hər kəsi peşə bayramı münasibətilə bir daha təbrik etdi, onlara uzun ömür, möhkəm sağlamlıq, xoşbəxtlik, firavanlıq və əmin-amanlıq arzuladı: «Siz xalqımızın, millətimizin sağlamlığı naminə yorulmadan çalışırsınız. Bu fədakar əməyinizə görə mən sizin hər birinizə təşəkkür edirəm. Arzu eləyirəm ki, öz peşənizlə daim fəxr edəsiniz, əməyinizin nəticələrinə sevinəsiniz».

Tədbirin sonunda Səhiyyə naziri Oqtay Şirəliyev ölkə səhiyyəsinə xüsusi diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin tibb işçilərinin peşə bayramı münasibətilə sərəncamlar imzaladığını, Azərbaycan səhiyyəsinin inkişafında xidmətlərinə görə bir qrup qabaqcıl səhiyyə işçisinin «Əməkdar həkim», «Əməkdar müəllim» və «Əməkdar tibb işçisi» fəxri adlarına layiq görüldüyünü, «Tərəqqi» medalı ilə təltif edildiyini dedi.

Toplantıda Prezident İlham Əliyevin «Azərbaycan Respublikasının səhiyyə işçilərinə fəxri adların verilməsi haqqında» və «Azərbaycan Respublikasının səhiyyə işçilərinin «Tərəqqi» medalı ilə təltif edilməsi haqqında» Sərəncamları oxundu, mükafatlar təqdim edildi.

Daha sonra nazir O.Şirəliyev əməkdə xüsusi xidmət və nailiyyətləri ilə fərqləndiklərinə görə Səhiyyə Nazirliyinin əmrinə əsasən «Səhiyyə əlaçısı» döş nişanı ilə təltif edilən tibb işçilərinə - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb idarəsinin rəis müavini Rauf Abbasova, həmin idarənin həkim-epidemioloqu Zaur Abbasova, Bakı şəhəri 5 nömrəli Şəhər Poliklinikasının şöbə müdiri Nizami Balaşzadəyə, Səhiyyə Nazirliyinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının baş həkimi Mirələm Calalova, Füzuli rayonu Bala Bəhmənli Həkim Ambulatoriyasının müdiri Oqtay Əliyevə, Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzinin şöbə müdiri Zemfira Əliyevaya, Göyçay Rayon Mərkəzi Xəstəxanasının (RMX) Qadın Məsləhətxanası şöbəsinin müdiri Tamilla Əsgərovaya, Şəki RMX-nın baş həkimi Elçin Əmirova, Respublika Müalicə Diaqnostika Mərkəzinin həkim-neyrocərrahı Azər Əkbərova, həmin Mərkəzin şöbə müdiri Araz Süleymanova, Bakı şəhəri 10 nömrəli Qadın Məsləhətxanasının baş həkimi Gülnarə Həsənovaya, Bakı şəhəri 7 nömrəli Qadın Məsləhətxanasının baş həkimi Südabə İsmayılovaya, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin bölmə rəhbəri Müşfiq Kərimova, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Qanköçürmə Stansiyasının həkim anestezioloq-reanimatoloqu Firudin Qarabəyova, Bakı şəhəri 10 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının baş həkiminin müavini Həsən Quliyevə, Bakı şəhəri 3 nömrəli Şəhər Poliklinikasının sahə həkimi Xalidə Məcidovaya, Bakı şəhəri 8 nömrəli Uşaq Poliklinikasının sahə həkim-pediatrı Mahir Məmmədova, Ağcabədi RMX-nın həkim-otorinolarinqoloqu Rafiq Nəsibova, Bakı şəhəri 7 nömrəli Doğum evinin Qadın Məsləhətxanasının müdiri Gülnarə Rzayevaya mükafatları təqdim etdi.

Həmçinin əhalinin sağlamlığının qorunması sahəsində qüsursuz və səmərəli fəaliyyətlərinə görə «Səhiyyə Nazirliyinin Fəxri Fərmanı» ilə mükafatlandırılan şəxslərə - Bakı şəhəri 7 nömrəli Doğum evinin həkim mama-ginekoloqu Zərifə Babayevaya, Bakı şəhəri 5 nömrəli Şəhər Klinik Xəstəxanasının şöbə müdiri Nailə Bağırovaya, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktor müavini Ceyhun Nəzərliyə və bölmə müdiri Xalid Əliyevə, Elmi Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun baş həkimi İmanverdi Rzayevə və baş tibb bacısı Dilarə Əhmədovaya, Milli Onkologiya Mərkəzinin həkim-onkoloqu Elçin Mansurova və elmi işçisi Arif Hətəmova, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Azərbaycan Respublika Komitəsi «Şəfa - Qusar» İstirahət Mərkəzinin direktoru Zeynəddin Xasmətova, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Sanitar-Epidemioloji Nəzarət Mərkəzinin Sanitariya-gigiyena bölməsinin Ekoloji laboratoriyasının laborantı Xudu Xuduyevə, Tərtər RMX-nın şöbə müdiri Gülarə Əhmədovaya mükafatlar təqdim olundu.

**Ü.FƏRZƏLİYEVA**

# «Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresi

### «Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresinin və Avrasiya Ürək-Damar Cərrahları Cəmiyyətinin XV konfransının iştirakçılarına

*Hörmətli konqres və konfrans iştirakçıları!*

*Sizi - Azərbaycan kardioloqlarını, kardiocərrahlarını və müxtəlif ölkələrdən respublikamızın paytaxtına gəlmiş alimləri səmimi salamlayır, konqresinizin işinə uğurlar və insanların sağlamlığı naminə nəcib fəaliyyətinizdə hər birinizə yeni nailiyyətlər arzu edirəm.*

*Kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafında özünəməxsus mövqeyi ilə seçilən ənənəvi Bakı konqresi bu gün təbabətin yeni müalicə üsulları və texnologiyalarının Azərbaycanda tətbiqinə layiqli töhfələr verməkdədir. Dünyanın mötəbər tibb mərkəzlərini təmsil edən tanınmış kardioloq alim və cərrahların iştirakı ürək-damar xəstəliklərinin müalicəsinə dair son elmi nailiyyətlərin müzakirə ediləcəyi konqresinizin yüksək nüfuzunun göstəricisidir. Gənc mütəxəssislər üçün təcrübə məşğələlərinin keçirilməsi isə onun elmi-praktik əhəmiyyətini xüsusilə artırır.*

*Avrasiya Ürək-Damar Cərrahları Cəmiyyətinin XV konfransı ilə birgə təşkil edilən hazırkı konqresin xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmasının rəmzi mənası vardır. Heydər Əliyev ölkəmizdə səhiyyə sisteminin davamlı təkmilləşdirilməsi üçün kifayət qədər geniş imkanlar yaratmışdı. Sonrakı dövr ərzində Azərbaycan səhiyyə sisteminin inkişafı, həmçinin kardiologiyanın dünya standartları səviyyəsinə yüksəldilməsi istiqamətində xeyli işlər görülmüşdür. Dünyanın məşhur kardioloji mərkəzlərində aparılan mürəkkəb əməliyyatların hazırda ölkəmizdə yeni nəsil kardioloqlar tərəfindən müvəffəqiyyətlə gerçəkləşdirilməsi təqdirə layiqdir.*

*Ümidvaram ki, kardiologiyanın və ürək-damar cərrahiyyəsinin aktual məsələlərinin qabaqcıl mütəxəssislərin iştirakı ilə ətraflı müzakirəsi həkimlərimizin xarici əlaqələrini daha da möhkəmləndirəcək, beynəlxalq təcrübədən qarşılıqlı faydalanmaqla bütövlükdə tibb elminin inkişafına xidmət edəcəkdir.*

***Ən xoş arzularla,***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 7 iyun 2019-cu il.*

**Artıq altıncı dəfədir ki, Azərbaycan paytaxtında «Bakı Ürək Günləri» Beynəlxalq Konqresi keçirilib.**

Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin (AÜDCC) təşkilatçılığı ilə baş tutan, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş toplantının iştirakçıları əvvəlcə Fəxri xiyabanda ulu öndərin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb.

Sonra Şəhidlər xiyabanını ziyarət edən iştirakçılar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyublar. Şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış «Türk şəhidliyi» abidəsi də ziyarət edilib.

Azərbaycanda kardiologiyanın və ürək-damar cərrahiyyəsinin inkişafına töhfə vermək, əcnəbi mütəxəssislərlə təcrübə mübadiləsi aparmaq və tibb elminin bu sahədəki son yeniliklərini müzakirə etmək məqsədi daşıyan «Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresində yerli mütəxəssislərlə yanaşı, dünyanın 15 ölkəsindən 400-dək kardioloq və kardiocərrah iştirak edib.

Tədbirin rəsmi açılış mərasimində **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva** dövlətimizin başçısı İlham Əliyevin «Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresinin və Avrasiya Ürək-Damar Cərrahları Cəmiyyətinin XV konfransının iştirakçılarına təbrik məktubunu oxuyub.

Toplantıda çıxış edən **Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov** ölkəmizdə digər sahələrdə olduğu kimi, səhiyyə sahəsində də islahatlar aparıldığını, təbabətin gündən-günə inkişaf etdiyini bildirib. O, ulu öndər Heydər Əliyevin uğurlu səhiyyə siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirildiyini və bu sahədə əhəmiyyətli nəticələr əldə edildiyini diqqətə çatdırıb. Komitə sədri deyib ki, ümummilli liderin məqsədyönlü siyasəti ölkəmizdə təbabətin digər sahələri kimi, kardiologiya və kardiocərrahiyyənin də inkişafına təkan verib,

Azərbaycanda bu sahədə peşəkar mütəxəssislər hazırlanıb və hazırda tək paytaxtda deyil, regionlarda da ən ağır, mürəkkəb ürək əməliyyatları həyata keçirilir.

Ölkəmizdə kardiologiyanın inkişaf tarixindən danışan **Səhiyyə nazirinin müavini Elsevər Ağayev** bildirib ki, hələ 1979-cu ildə keçmiş SSRİ ölkələri arasında ilk açıq ürək əməliyyatı Azərbaycanda professor Fikrət Zərgərli tərəfindən aparılıb. Azərbaycan səhiyyəsinin tarixinə nəzər salan E.Ağayev dövlət müstəqilliyimizin ilk illəri ilə müqayisədə bu sahədə vəziyyətin müsbət istiqamətə doğru dəyişdiyini diqqətə çatdırıb. O qeyd edib ki, ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi və nüfuzu sayəsində səhiyyənin bütün sahələri ilə yanaşı, kardiologiyanın da mühüm nailiyyətlərinin əsası qoyulub. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Azərbaycan səhiyyəsinin müasir infrastrukturu qurulub. Bir sıra dövlət proqramlarının reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük xidmətləri var.



**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədr müavini Nigar Bayramova** xatırladıb ki, hazırda Mingəçevir şəhərində, Ağdaş və Yevlax rayonlarında pilot layihə kimi tətbiq olunan icbari tibbi sığorta gələn ildən bütün ölkə ərazisini əhatə edəcək. İcbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə yaşayanlar baza zərfinə daxil olan 1829 tibbi xidmətdən ödənişsiz istifadə hüququna malikdirlər. 2017-2018-ci illərdə pilot ərazilərdə 756 nəfər üzərində kardiocərrahi əməliyyat həyata keçirilib. Əhalinin yararlana biləcəyi icbari tibbi sığortanın xidmətlər zərfinin hazırlanması üzərində iş gedir. Ürək-damar əməliyyatları da xidmətlər zərfinə daxil ediləcək.

**AÜDCC-nin sədri, tibb elmləri doktoru Kamran Musayev** bildirib ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən «Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresi davamlı tibbi təhsil verən tədbir kimi tanınıb və ona 24 kredit balı verilib: «Bu o deməkdir ki, konqresdə və müvafiq kurslarda iştirak etməklə illik tələb olunan 48 kredit balının 24-nü toplamaq olar. Gənc mütəxəssislər üçün təşkil ediləcək təcrübə məşğələləri «Bakı Ürək Günləri»nin elmi-praktik əhəmiyyətini daha da yüksəldir. Eyni zamanda, konqres azərbaycanlı həkimlərə dünyanın qabaqcıl mütəxəssisləri ilə kardiologiya sahəsində ən son nailiyyətləri müzakirə etmək imkanı yaradır». «Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresi ilə paralel olaraq paytaxtımızda Avrasiya Ürək-Damar Cərrahları Cəmiyyətinin XV konfransının da keçirildiyini deyən K.Musayev bildirib ki, konqresin ilk günündə təşkil edilən kurslar xüsusilə gənc kardioloqlar üçün çox faydalı olub.

Avrasiya Ürək-Damar Cərrahları Cəmiyyətinin sədri, professor Belhan Akpınar, Türk Dünyası Kardiologiya Birliyinin sədri Firdovsi İbrahimov, Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri, professor Tofiq Cahangirov çıxışlarında tədbirin təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayaraq, bu sahənin inkişafına töhfə verəcəyini deyiblər.Üçgünlük konqres öz işini plenar sessiyalarla davam etdirib. Anadangəlmə ürək qüsurları, mitral annular kalsifikasiya, degenerativ mitral qapaq prolapsının bərpası və digər mövzularda məruzələr dinlənilib və müzakirələr aparılıb.

«Bakı Ürək Günləri» VI Beynəlxalq Konqresi çərçivəsində gənc cərrahlar və rezidentlər üçün «Mitral qapaq təmiri», «Aorta anastomozu» və «EVAR və TEVAR ekspertlə görüş» mövzularında praktik məşğələlər də təşkil olunub.

# Onkoginekoloji xəstəliklərə müasir yanaşma

**Bakıda Milli Onkologiya Mərkəzi (MOM) və İsrail Onkoginekologiya Mərkəzinin birgə təşkilatçılığı ilə «Onkoginekoloji xəstəliklərə müasir yanaşma» mövzusunda beynəlxalq konfrans keçirilib.**

Tədbirdə Azərbaycanın, İsrailin və Almaniyanın onkoginekologiya üzrə mütəxəssisləri, ölkəmizin tibb müəssisələrinin həkimləri iştirak ediblər.

MOM baş direktorunun müavini, tibb üzrə fəlsəfə doktoru Fuad Quliyev konfransı açaraq, onkologiya elminin müasir dövrdə inkişafı və tədbirin əsas məqsədi barədə məlumat verib.

Mərkəzin Onkoginekologiya şöbəsinin müdiri Şəmistan Alıyev burada aparılan əməliyyat və tətbiq olunan müalicə üsulları, həkim və tibb işçilərinin beynəlxalq əməkdaşlığı haqqında danışıb.

Sonra İsrail Onkoginekologiya Cəmiyyətinin prezidenti, Barzilai Tibb Mərkəzinin Ginekologiya şöbəsinin rəhbəri, professor Ofer Gemerin «Endometrial xərçəngdə limfadenektomiya və sentinel limfa düyünü biopsiyasının rolu», Kaplan Tibb Mərkəzinin Ginekologiya şöbəsinin rəhbəri, professor Alon Ben Arieninin (İsrail) «Reproduktiv funksiya qoruyucu müalicə və irsi endometrial xərçəng», Əhməd Namazovun (İsrail) «Endometrial xərçəngin diaqnozunda histeroskopiyanın rolu» və Alfred Hanselin (Almaniya) «Uşaqlıq boynu xərçənginin diaqnostikasında yeni molekulyar diaqnostik metodlar» mövzusunda məruzələri dinlənilib.

Konfransda Azərbaycan və İsrail mütəxəssisləri arasında onkoginekoloji xəstəliklərə müasir yanaşma mövzusunda dəyirmi masa və müzakirələr, xəstə təqdimatları, diskussiyalar və kliniki müzakirələr aparılıb.

# Azərbaycanda ana və uşaq sağlamlığının qorunması üçün ciddi addımlar atılır



**Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu ilə birgə «Pediatriyanın tibbi-sosial aspektləri. Müasir yanaşmaların tətbiqi» mövzusunda elmi-praktiki konfrans keçirilib. Tədbirdə ölkəmizin şəhər və regionlarında çalışan neonatoloq və pediatrlarla yanaşı, xarici ölkələrdən gəlmiş mütəxəssislər də iştirak ediblər.**

**Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov** bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunmuş «Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı» indiyə qədər səhiyyə sisteminin inkişafı ilə bağlı həyata keçirilən tədbirlərin davam etdirilməsinə, əhalinin sağlamlığının daha yüksək səviyyədə qorunmasına xidmət edən növbəti addım olub. Bu sənəddə mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması yolları müəyyənləşdirilib, qadın və uşaqlara göstərilən müalicə-profilaktika yardımlarının keyfiyyətinin yüksəldilməsi, onların sağlamlıq vəziyyətinin yaxşılaşdırılması bir məqsəd kimi qarşıya qoyulub. Rektor bildirib ki, ölkəmizdə əhalinin tibbi maarifləndirilməsi, qohum evliliklərin mənfi nəticələri barədə məlumatlandırılması da vacib hədəflərdəndir. Professor N.Qasımov ana və uşaq sağlamlığı üzrə həyata keçirilən irimiqyaslı layihələrdən danışıb, bu sahədə həkimlərin təkmilləşməsi, müasir biliklərə yiyələnməsi, beynəlxalq təcrübədən yararlanması üçün konfransın əhəmiyyətli olacağını vurğulayıb.

**K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun direktoru, Səhiyyə Nazirliyinin pediatriya üzrə baş mütəxəssisi, professor Nəsib Quliyev** çıxış edərək, ana və uşaqların sağlamlığının daim diqqət mərkəzində olduğunu qeyd edib. Professor Azərbaycanda bu istiqamətdə görülən işlərdən danışıb, atılan addımların öz bəhrəsini verdiyini diqqətə çatdırıb. Baş pediatr bildirib ki, uşaq yaşlarında sağlamlıq pozuntularının erkən aşkarlanması və onların gələcəkdə əmələ gəlməsinə qarşı profilaktik tədbirlərin həyata keçirilməsində neonatoloq və pediatrların göstərdiyi yardımlarda yeni yanaşmaların tətbiqi zəruridir. Bu baxımdan Azərbaycanda uşaqlara yardım göstərən, onların sağlamlığının keşiyində duran həkimlərin bilik və bacarıqları daim təkmilləşməlidir. Professor N.Quliyev tədbirin həkimlər üçün faydalı olacağına əminliyini ifadə edib və uğurlar arzulayıb.

Konfrans müxtəlif mövzularda məruzə və müzakirələrlə davam etdirilib. Pediatriya və neonatologiya sahəsində antenatal diaqnostikanın perspektivləri, yenidoğulmuşlarda mərkəzi sinir sistemi xəstəliklərinin erkən aşkarlanması, erkən doğulan uşaqların qidalanması və inkişafı, Azərbaycanda uşaqlar arasında geniş yayılan inkişaf çətinlikləri və onların erkən aşkarlanmasında yeni yanaşmaların tətbiqi kimi tədqiqatların nəticələri barədə məlumatlar konfrans iştirakçılarına təqdim edilib. Eyni zamanda, konfransda ölkəmizdə onurğa xəstəliklərinin yayılması və bu halların vaxtında aşkarlanmasında pediatrların rolu haqqında, pediatriyanın sosial aspektləri, uşaq zorakılığına dair məsələlər barəsində də məlumat verilib.

# Elmi Cərrahiyyə Mərkəzi növbəti səyyar elmi-praktik konfrans keçirib

**Azərbaycan Cərrahlar və Qastroenteroloqlar İctimai Birliyi, Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi (ECM) və Şamaxı Rayon Mərkəzi Xəstəxanası (RMX) Şamaxıda «Cərrahiyyənin aktual problemləri» adlı regional elmi-praktik konfrans keçirib.**



Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayonlarından, həmçinin Elmi Cərrahiyyə Mərkəzindən ümumi cərrah, anestezioloq, reanimatoloq, kardioloq, qastroenteroloq və terapevtlərin iştirak etdiyi tədbirdə ECM-in direktoru, professor Rauf Ağayev Prezident İlham Əliyevin xalqımızın sağlamlığını daim diqqət mərkəzində saxladığını vurğulayıb, bu siyasətin tibb işçiləri tərəfindən hər zaman dəstəkləndiyini söyləyib. Bu baxımdan, Səhiyyə naziri Oqtay Şirəliyevin göstərişi ilə ölkəmizin aparıcı tibb mütəxəssislərinin rayonlarda həkimlərlə vaxtaşırı təcrübə mübadiləsi aparması, əhaliyə yerində konsultasiyalar keçirməsi böyük əhəmiyyət daşıyır. R.Ağayev bu konfransın əhaliyə tibbi yardımın yaxşılaşdırılması istiqamətində müxtəlif ixtisaslı həkimlərin bilik və peşə bacarıqlarının artırılmasında böyük rol oynayacağını bildirib.

Sonra Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin aparıcı mütəxəssisləri professorlar H.İsayev, Ə.Məmmədov, F.Saidova, N.Abışov, Q.Müslümov, tibb elmləri doktorları E.Rüstəmov, F.Həsənov, Z.Şirinov və tibb üzrə fəlsəfə doktoru E.Əliyev həzm traktının, ürək-damar sisteminin və anesteziologiya-reanimatologiyanın aktual problemlərini əhatə edən maraqlı məruzələrlə çıxış ediblər.

Sonda geniş auditoriyanın iştirakı ilə müzakirələr aparılıb, iştirakçılara sertifikatlar təqdim edilib.

# AŞPA-da azərbaycanlı deputatlar psixi xəstələrin hüquqlarından danışıblar

**Avropa Şurası Parlament Assambleyasında (AŞPA) «Psixi sağlamlıqla bağlı məcburiyyətlərə son qoymaq: insan hüquqlarına əsaslanan yanaşmaya zərurət» adlı məruzə dinlənilib. Müzakirələrdə azərbaycanlı deputatlar da öz fikirlərini bölüşüblər.**

«İnsan hüquqları bəşəriyyət üçün qeyd-şərtsiz və qlobal bir dəyərdir. Ancaq təəssüf ki, həyatımızın bəzi sahələrində insan hüquqları hələ də köhnə qayda və ənənələri dəyişməyib. Psixi sağlamlıq sahəsində yardıma ehtiyacı olan insanların hüquqları dünyada sistematik olaraq pozulur. Bu insanlara tibbi yardım göstərmək üçün onların könüllü razılığı əsas məqamdır». Bu fikirləri adı çəkilən məruzənin müzakirələri zamanı Liberal Demokratlar Qrupu adından çıxış edən Azərbaycan nümayəndə heyətinin üzvü Elşad Həsənov söyləyib. O bildirib ki, Birləşmiş Millətlər Təşkilatının Əlillərin hüquqlarının müdafiəsi üzrə Konvensiyasına görə, hər bir fərd öz seçimini etməkdə azaddır. Əlillər hər bir kəslə eyni hüquqa malikdirlər və cəmiyyətə inteqrasiya edilməlidirlər. Psixi sağlamlıq sistemi sözügedən Konvensiyaya uyğun olmalıdır. Psixososial əlillik sahəsində məcburi üsullardan istifadə edərkən ortaya etik problemlərin çıxmasına, psixi sağlamlıq sahəsində icbari metodların geniş yayılmasına toxunan azərbaycanlı deputat məcburiyyətin etik cəhətdən problemli olduğunu, fərdin sərbəstliyini məhdudlaşdırdığını qeyd edib. O diqqətə çatdırıb ki, aparıcı regional insan hüquqları təşkilatı kimi, AŞPA psixi sağlamlıq sahəsində insan hüquqlarında ayrı-seçkilik, zorakılıq və sui-istifadəni aradan qaldıracaq strategiya müəyyən etməlidir. Avropa dövlətləri psixi xəstəliyi olan insanların hüquqlarını pozan bütün üsulları aradan qaldırmalıdır. Təəssüf ki, «ruhi xəstəliyi» və ya «psixi qüsuru» olan şəxslər hələ də xəstəxanalarda məcburi qaydada saxlanılır və fiziki məhdudiyyətlərə məruz qalırlar. Hesabata əsasən, psixi sağlamlıq sistemində məcburi tədbirlərin istifadəsində artım müşahidə edilir.

«Bu gün psixiatriyada icbari üsulları azaltmaq üçün köklü islahatlar aparmalı, qanunvericilikdə dəyişikliklər etməli və xüsusi layihələr həyata keçirməliyik. Psixi müalicə sahəsində zorakılığın qarşısını almaq üçün yeni xəstəxana tipli strategiyaya, humanitar tədbirlər kompleksinə, psixoloji yardımlara və digər müsbət nümunələrə ehtiyacımız var. Hər bir dövlət psixi müalicə sistemində islahatlar aparmalı, bu sistem tibbi etika və insan hüquqlarına tam uyğun olmalıdır», - deyə E.Həsənov vurğulayıb.

AŞPA-dakı nümayəndə heyətimizin üzvü Ülviyyə Ağayeva isə söyləyib ki, psixi xəstələrə müxtəlif aspektlərdən yanaşmaq lazımdır: «Belə xəstələrə onların psixi vəziyyətlərinə uyğun şəkildə yanaşılmalıdır. Yalnız onlar özlərinə və ətrafdakılara təhlükə yaratdığı halda məcburi müalicəyə müraciət etmək olar».

O bildirib ki, belə xəstələrlə bağlı tətbiq olunan müalicə üsullarına yenidən baxılmalıdır. Ü.Ağayeva bəzən aparılan müalicələrin əks təsiri olduğunu diqqətə çatdırıb və daha diqqətli olmağa çağırıb. Belə xəstələrin məcburi şəkildə müəyyən şəraitdə saxlanılmasının, hərəkətlərinin məhdudlaşdırılmasının mənfi təsir göstərdiyini vurğulayıb. Bu cür müalicə üsullarının tətbiqinin onların vəziyyətlərinin daha da ağırlaşmasına səbəb olduğunu qeyd edib.

# Qubada uşaqlarda yoluxucu xəstəliklər üzrə səyyar kurs

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Pediatriya kafedrası tərəfindən Qubada «Uşaqlarda yoluxucu xəstəliklər zamanı təxirəsalınmaz vəziyyətlər» mövzusunda səyyar kurs keçirilib.**

Quba, Qusar, Siyəzən və Xaçmaz rayonlarında çalışan 31 həkim-pediatrın, neonatoloq və təcili tibbi yardım həkimlərinin iştirak etdiyi kursda Pediatriya kafedrasının müdir əvəzi, professor Rəqsanə Məmmədovanın rəhbərliyi ilə aparılan dərsləri dosentlər Mətanət Qaraxanova, Zemfira Quliyeva və assistent Təranə İbadova aparıblar. Kurs ərzində uşaqlarda infeksion xəstəliklər zamanı təxirəsalınmaz vəziyyətlərin xüsusiyyətləri, həmin vəziyyətlərdə yardım prinsipləri və alqoritmləri, müalicə taktikaları həkim-dinləyicilərə təqdim edilib.

Eyni zamanda, dosent Mətanət Qaraxanova Quba rayonu Perinatal Mərkəzinin tibbi heyətinə Səhiyyə nazirinin keçən ilin dekabrında imzaladığı «Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üçün Milli Fəaliyyət Planı»nın icrası barədə» əmri ilə əlaqədar məlumatları çatdırıb.

Bundan başqa, uşaq poliklinikasında çalışan tibb işçiləri ilə görüş keçirilib və onlara uşaq sağlamlığı ilə əlaqədar yeni yanaşmalar, uşaq hüquqları və digər aktual məsələlər barədə məlumatlar verilib.

# Kardiologiya İnstitutunun 40 illiyi qeyd olundu

**Bakıda Akademik Cahangir Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunun 40 illiyi ilə bağlı elmi-praktiki konfrans keçirilib.**



Yerli mütəxəssislərlə yanaşı, Gürcüstan, Belarus, Türkiyə, Rusiya və digər ölkələrdən tanınmış kardioloq və kardiocərrahların iştirak etdiyi konfransı İnstitutun direktoru, tibb elmləri doktoru Gülnaz Dadaşova giriş sözü ilə açaraq bildirib ki, son vaxtlar səhiyyə sisteminin idarə edilməsinin təkmilləşdirilməsinə, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə, yeni tibbi texnologiyaların tətbiqinə yönəlmiş tədbirlər həyata keçirilir, tibbi kadrların, o cümlədən kardiologiya və ürək-damar cərrahiyyəsi üzrə mütəxəssislərin hazırlanması sahəsində ciddi uğurlar qazanılıb: «1979-cu ildən fəaliyyət göstərən Elmi Tədqiqat Kardiologiya İnstitutu bu gün - 40 illik yubileyi ərəfəsində - böyük elmi potensiala və klinik-praktik təcrübəyə malikdir. Bu nailiyyətlər dövlətimizin bu elm və təbabət ocağına göstərdiyi dəstək, diqqət və qayğının nəticəsidir».

Gülnaz Dadaşova qeyd edib ki, müasir dövrdə ürək-damar xəstəliklərindən ölüm sayının azalması tibb aləmində mühüm hadisə hesab edilir: «Məhz buna görə kardiologiyanın müasir vəziyyətini, arterial və ağciyər hipertenziyası, ateroskleroz və dislipidemiya, ürəyin işemik xəstəliyi və miokard infarktı, ürək ritminin pozulması, tromboz və tromboemboliya və s. kimi vacib problemləri müzakirə etmək, ürək-damar xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikasında əldə edilmiş müasir nailiyyətləri və yeni yanaşmaları gözdən keçirmək məqsədi daşıyan bu konfrans böyük əhəmiyyətə malikdir».

Türk Dünyası Kardiologiya Birliyinin sədri Firdovsi İbrahimov, Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri, professor Tofiq Cahangirov və digərləri çıxışlarında tədbirin təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıb, kardiologiya və ürək-damar cərrahiyyəsindəki ən mübahisəli problemlərin, son yeniliklərin müzakirə olunmasının bu sahənin inkişafına töhfə verəcəyini deyiblər. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin əhalimizin sosial rifahının və sağlamlığının yüksək səviyyəyə qaldırılması siyasəti nəticəsində ölkəmizdə səhiyyə müəssisələrinin yenilənməsi danılmaz bir faktdır. Bunların arasında Elmi Tədqiqat Kardiologiya İnstitutu da var. Bu gün bu elmi müəssisə öz nailiyyətləri ilə səhiyyə ocaqları arasında özünəməxsus yer tutur.

Toplantı öz işini plenar sessiyalarla davam etdirib, Azərbaycan və xarici ölkə mütəxəssislərinin məruzələri dinlənilib.

Qeyd edək ki, elmi-praktiki konfrans Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditə olub və 5 kredit balla qiymətləndirilib.

# «İnvaziv diaqnostika və müalicə: Bu gündən sabaha»

## *Bakıda bu adda beynəlxalq konfrans keçirilib*

**Milli Onkologiya Mərkəzində (MOM) 15 iyun - Milli Qurtuluş Günü, həmçinin MOM-un nəzdində yaradılmış İnvaziv diaqnostika və müalicə şöbəsinin 5 illiyinə həsr olunmuş «İnvaziv diaqnostika və müalicə: bu gündən sabaha» adlı beynəlxalq konfrans keçirilib.**



Milli Onkologiya Mərkəzinin baş direktorunun müavini, tibb üzrə fəlsəfə doktoru Fuad Quliyev giriş nitqində onkologiya elminin müasir dövrdə inkişafı və tədbirin əsas məqsədi barədə məlumat verib.

Yerli həkimlərlə yanaşı, Türkiyə və Rusiyadan dəvət olunmuş mütəxəssislər - Türkiyənin Koç Universiteti Xəstəxanasının professoru Çil Barbaros Erhan, dosent Aslan Fatih, Rusiyanın N.N.Petrov adına Milli Onkoloji Tibbi Tədqiqat Mərkəzinin Endoskopiya şöbəsinin rəhbəri Oleq Tkaçenko bu sahədə ən son elmi və praktiki təcrübələrini bölüşüblər. Tədbirdə həkim və mütəxəssislərlə tibbin bu sahəsinin ən aktual məsələləri müzakirə olunub və cərrahi əməliyyat otaqlarından bir sıra əməliyyatlar birbaşa yayımlanıb.

Konfransda Ruslan Məmmədovun «Endoskopik ultrasəs müayinəsinin günümüzdə aktuallığı», Gülüstan Babayevanın «Xroniki pankreatitlərin diaqnostikasında yeniliklər», Aslan Fatihin «Advanced Endoscopy - ESD, STER, POEM, POET», Çil Barbaros Erhanın «Hepatosellular karsinomada transarterial lokoregional müalicələr», Oleq Tkaçenkonun «Submukozal tunel endoskopik rezeksiya, anastomoz çatışmazlığı zamanı endoskopik yanaşma», Eldar Quliyevin «MOM-da qaraciyər törəmələrində invaziv müalicə taktikaları», Cavid Əhmədovun «Qastrik varikoz genişlənmələrdə invaziv radiologiyanın yeri», Ruslan Əliyevin «Uşaqlıq qanaxmalarında invaziv müdaxilələrin rolu», Fərid Quliyevin «MOM-da icra olunan invaziv endoskopik müalicə üsulları», «Elgün Həziyevin «Onkoloji xəstələrdə kreatinin yüksəlməsinə yanaşma» mövzularında məruzələri dinlənilib və müzakirələr aparılıb.

Qeyd edək ki, tədbir Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditasiyadan keçib və ona 8 kredit vahidi verilib. Konfransın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

# Tibb Universitetində UNICEF məsləhətçiləri ilə görüş



**BMT-nin Uşaqlara Yardım Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyi 2021-2025-ci illər üçün növbəti ölkə proqramını hazırlayır. Bununla əlaqədar UNICEF-in region üzrə sağlıq və təhsil məsləhətçisi Basil Rodriges Azərbaycan Tibb Universitetində (ATU) olub, rektor professor Gəray Gəraybəyli ilə görüşüb.**

Qonaqlara ATU-da mövcud təhsil və imtahan sistemi, tədrisdə aparılan innovativ yeniliklər, elektron universitet proqramının tətbiqi haqqında geniş məlumat verilib. Həmçinin birgə əməkdaşlığın istiqamətləri müzakirə olunub.

Görüşdə iştirak edən **UNICEF-in sağlamlıq və qidalanma üzrə nümayəndəsi Töhfə Cəmilova** təmsil etdiyi təşkilatın 25 ildən çoxdur Azərbaycanla çalışdığını deyib, qurumun hökumətlə birgə növbəti 5 illik proqramının hazırlanması, sənəddə təhsil və səhiyyə üzrə vacib məqamların əks olunması üçün ATU ilə əməkdaşlığın ümumi işə böyük töhfə verəcəyindən əminliyini bildirib.

**Rektor Gəray Gəraybəyli** ATU əməkdaşlarının UNICEF-in təşkilatçılığı ilə keçirilən tədbirlərdə, proqramların reallaşmasında yaxından iştirak etdiklərini vurğulayıb: «Son 10 ildə universitetimizin yürütdüyü əsas strateji xətlərdən biri beynəlxalq əlaqələrin genişləndirilməsidir. Bir çox xarici ölkələrin, həm Avropa, həm də digər regionların universitetləri, beynəlxalq təşkilatlarla əlaqələrimiz var. UNICEF-lə əməkdaşlıq bu əlaqələrin daha da dərinləşməsinə təkan verəcək».

Rektor G.Gəraybəyli pediatriya sahəsinin inkişafının həm Azərbaycan səhiyyəsi, həm də ATU üçün önəmli sahələrdən biri olduğunu qeyd edib. Bu səbəbdən UNICEF-in ölkə proqramında pediatriya ilə bağlı məqamların əks olunmasının vacibliyini bildirib. Tələbələrin praktik biliklərinin artırılması, dünyada mövcud praktik vərdişlərin öyrədilməsi məqsədilə treninq mərkəzlərinin yaradılmasında UNICEF-in kömək göstərə biləcəyini qeyd edib.

UNICEF-in region üzrə sağlıq və təhsil məsləhətçisi Basil Rodriges regionda ailə həkimi institutunun yaradılmasının vacibliyindən danışıb. Onun sözlərinə görə, UNICEF-in budəfəki ölkə proqramında əsas bəndlərdən biri pediatriya sahəsinin inkişafı, uşaqlara ilkin tibbi yardımın keyfiyyətli təşkili, digəri isə ailə həkimi institutunun yaradılması ilə bağlıdır.

Görüşdə ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov, ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev iştirak ediblər.

# Tibb müəssisəsinin rəhbəri beynəlxalq mükafata layiq görülüb






